

**Tağı Məhəmməd oğlu Əhmədov:** 1 fevral 1948-ci ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Yuxarı Remişin (indiki Güney Qışlaq) kəndində anadan olub.

1965-ci ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu, 1977-ci ildə Azərbaycan Politexnik İnstitutunu, 1987-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib.

1965-ci ildən "Badamlı" zavodunda fəhlə, 1970-1994-c illərdə Bakı Metropoliteninin tunel qurğuları və yol xidmətində tunel fəhləsi, böyük tunel ustası, distansiya rəisi, 1994-1998-ci illərdə tunel qurğuları xidmətinin rəisi işləyib.

1997-ci ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin aspiraantıdır, texnika elmləri namizədidir.

1998-2014-cü illərdə Bakı Metropoliteninin rəisi vəzifəsində çalışıb. "Tunellərin zəlzələyə davamlılığı" mövzusunda tədqiqat işi aparır.

"Fəxri Dəmiryolçu", "Bakı metropoliteni veteranı" döş nişanları, 2002-ci ildə "Şöhrət ordeni", 2008-ci ildə "Azərbaycan Respublikasının Əməkdar mühəndisi" fəxri adı və nişanı ilə təltif edilib.

2005-ci ildən Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvüdür. Bakı metropoliteninin dünya standartlarına çatdırılması sahəsində xidmətlərinə görə "Qızıl Buta" müstəqil milli mükafatına layiq görülüb.

2012-ci ildə ölkənin iqtisadi inkişafında xidmətlərinə və Azərbaycan elminə verdiyi töhfələrə görə akademik Yusif Məmmədəliyev adına medalla təltif olunub.